**Məhərrəmov V.** Yaralansa da, döyüşdən çıxmadı... // Azərbaycan : - 2024. - 6 dekabr. - **№ 269**. - S. 11.

44 günlük Vətən müharibəsində elə alilələr oldu ki, iki övladı döyüşlərdə iştirak etdi. Onlar erməni işğalçılarına qarşı cəsarətlə vuruşdular. Torpaqlarımızın azadlığı naminə igidlik, qəhrəmanlıq göstərdilər. 30 ilə yaxın erməni işğalında qalmış şəhər və kəndlərimiz azad olunandan, düşmən üzərində Zəfər qazanılandan sonra sinələri orden və medallarla, alnıaçıq, başıuca geri qayıtdılar. Təəssüflər olsun ki, müharibədən geri qayıtmayanlar da oldu. Zabit və əsgərlərimiz uzun illərdən bəri erməni işğalında qalmış torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə Vətən naminə, Qələbə naminə şirin canlarından keçdilər. Şəhidlik zirvəsinə ucaldılar, əbədilik qazandılar, qəhrəmanlıqları ilə tarix yazdılar.

Sumqayıt şəhərində yaşayan İsgəndərovlar ailəsindən də iki oğul - Emil və Əli Qarabağ uğrunda döyüşürdü. İkisinin də məqsədi, amalı torpaqlarımızı erməni işğalçılarından azad etmək idi. Bütün vətənpərvər gənclərimiz kimi bu qardaşlar da xeyli müddət idi ki, yurdumuzun azadlığı uğrunda döyüşlərin başlayacağı günü gözləyirdilər. Gözləyirdilər ki, həmin gün döyüşlərə atılsınlar, düşmənlərdən şəhidlərimizin qisasını alsınlar, torpaqlarımızı azad etsinlər. İkinci Qarabağ müharibəsi başlayanda Əli də, Emil də ilk günlərdən erməni təxribatı nəticəsində başlayan döyüşlərə atıldılar. Əks-hücum əməliyyatlarında böyük hünər və qəhrəmanlıqlar göstərdilər. Erməni işğalçılarından şəhidlərin intiqamını aldılar, torpaqlarımızı azad etdilər. Hərbçilərindən yalnız qələbə gözləyən xalqımızın başını uca etdilər, qəhrəmanlıqları ilə gələcək nəsillərə nümunə oldular.

**Bir ailədən iki döyüşçü**

Harada silahlar gurlayırsa, müharibə gedirsə, orada ölüm var, itki var. İsgəndərovlar ailəsindən döyüşə yollanmış qardaşlardan biri - Emil noyabrın 4-də musiqi beşiyimiz olan Şuşa ətrafında gedən döyüşlərdə şəhid oldu. Buna qədər şərəfli döyüş yolu keçdi, iştirakçısı olduğu əməliyyatlarda neçə-neçə ermənini məhv etdi. Hünəri və qəhrəmanlığı ilə komandirlərinin, döyüş yoldaşlarının rəğbətini qazandı. Cəsarəti ilə qorxmaz, mübariz və igid əsgər kimi tanındı.

Yurdumuzun azadlığı naminə canından keçmiş Emil İsgəndərovun qardaşı Əli isə müharibənin ilk günündən sona qədər döyüşlərdə iştirak edib. Müharibə başlayana qədər Əli xeyli döyüş təcrübəsi qazanmışdı. O, əsgəri xidmətini Naxçıvan Muxtar Respublikasının ərazisində yerinə yetirib, uğurla başa çatan, qəhrəmanlıq tariximizə böyük hərflərlə yazılmış Günnüt əməliyyatında iştirak edib. Vətənin əsgəri kimi İkinci Qarabağ müharibəsi zamanı da əks-hücum əməliyyatlarında üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlib. Döyüş yolu Füzulidən, Cəbrayıldan, Qubadlıdan və başqa bölgələrdən keçib. Əməliyyatlar zamanı göstərdiyi hünərə və cəsarətə görə dövlət başçımızın müvafiq sərəncamları ilə İsgəndərov Əli Vaqif oğlu "Cəbrayılın azadlığına görə" və "Vətən uğrunda" medallarına layiq görülüb. Əli İsgəndərov bu gün polis kimi xidmətini davam etdirir.

Yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmuş Emil İsgəndərovun valideynləri və doğmaları ilə görüşmək üçün yolumuzu onun bir zamanlar doğulduğu və böyüdüyü Sumqayıt şəhərinin 9-cu mikrorayonunun 18-ci məhəlləsindən saldıq. Bir neçə saat ərzində Emilli günlər, anlar yaşadıq. Doğmalarının, əzizlərinin onun haqqında söylədikləri acılı-şirinli xatirələrə qulaq asdıq. Bu xatirələr gah bizi kövrəltdi, gah da qürurlandırdı. Bir anlıq da olsa xəyalların qanadlarında ötən illərə qayıtdıq. O illərə ki, Emil onda hər gün səhər evdən çıxıb xidmət etdiyi hərbi hissəyə gedir, axşamlarsa geri dönürdü.

**Ot kökü üstə bitər**

Doğmaları ilə söhbət edərkən öyrəndik ki, Emilin atası Vaqif İsgəndərov hərbçi olub. Övladları dünyaya göz açanda onu hərbi formada görüblər. Keçmiş zabit 1992-1993-cü illərdə Ağdərə və Ağdam rayonları istiqamətində gedən döyüşlərdə artilleriyaçı kimi iştirak edib. Müharibənin bütün qanlı-qadalı üzünü görüb. Torpaqlarımızın müdafəsində cəsarətlə, hünərlə dayanıb. 1997-ci ildə ordu sıralarından tərxis olunan Vaqif İsgəndərov hazırda Sumqayıt şəhərindəki Cəlil Səfərov adına 10 nömrəli orta məktəbdə idman müəllimi işləyir. Təcrübəsini, peşəkarlığını sabahın əsgərləri olacaq gənclərə öyrədir.

Atasını hərbi formada görən Emilin də, Əlinin də orduda xidmətə həvəsi kiçik yaşlarından yaranıb. Vaqif İsgəndərov yeri düşdükcə övladlarına Birinci Qarabağ müharibəsində iştirakçısı olduğu döyüşlərdən söz açar, o illərdə əsgərlərimizin döyüşlərdə göstərdiyi qəhrəmanlıqlardan danışardı. İgidliklə dolu bu söhbət və xatirələr həmişəlik olaraq Emilin də, Əlinin də yaddaşına yazılırdı. İllər sonra onları hərbi xidmətə, döyüşlərə aparan da elə həmin vətənpərvərliklə dolu söhbətlər oldu. Birinci Qarabağ müharibəsinin davam etdiyi 1992-1994-cü illərdə Vətən torpaqlarını erməni qəsbkarlarından müdafiə etmiş, şərəfli döyüş yolu keçmiş Vaqif İsgəndərovun cəsur oğulları 28 ildən sonra atalarının layiqli davamçıları oldular. 44 günlük Vətən müharibəsində torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə cəsarətlə vuruşdular.

Emilin bir vaxtlar yaşadığı evə ayaq basanda ilk andan diqqətimizi çəkən onun xatirəsinə düzəldilmiş guşə oldu. Guşəyə Emilin yaşanmış və artıq tarixə dönmüş həyatını göstərən şəkillər qoyulmuşdu. Müxtəlif ölçülü əşyalar düzülmüşdü. Kədər hissləri ilə baxdığımız şəkillər, əşyalar sanki onun ötüb arxada qalmış həyatının illərinə güzgü tuturdu.

Ərazi bütövlüyümüz uğrunda şəhid olmuş Emil İsgəndərovun şəkillərinə baxa-baxa onun şərəf dolu ömür yolunu vərəqləyirik. Öyrənirik o, 1990-cı il avqustun 5-də Sumqayıt şəhərində dünyaya göz açıb. Onun dünyaya gəlişi ailəyə böyük sevinc gətirib. Çünki o evin ilki, birinci övladı olub. Sanki şıltaqlıqla dolu uşaqlıq illəri tez ötüb keçib. 1997-ci ilin sentyabrında ılıq bir yay günündə Sumqayıt şəhərindəki 10 nömrəli orta məktəbin birinci sinfinə gedib. Mənalı həyatının ən kövrək addımlarını atıb. Kiçik yaşlarından idmana böyük maraq göstərən Emil

günlərin birində qoynunda dünyaya göz açdığı Sumqayıt şəhərindəki "Alüminiumçu" idman kompleksinə üz tutub. Burada Əməkdar məşqçi Firdovsi Ömərovun rəhbərliyi altında sərbəst güləş növü üzrə məşqlərə başlayıb. İdmana böyük maraq göstərdiyinə görə zəruri vərdiş və hərəkətləri tez bir zamanda mənimsəyib. Çox keçməyib ki, bacarığını, gücünü nəzərə alan məşqçi böyük etimad göstərərək onu yeniyetmələr arasında keçirilən şəhər və respublika birinciliklərinə cəlb edib. Emil məşqçisinin etimadını doğruldaraq, yarışlarda gücünü, bacarığını göstərərək qarşılaşdığı rəqiblərinə qalib gəlib, uğurlu nəticələr qazanıb.

**Vətən qarşısındakı övladlıq borcunu şərəflə yerinə yetirdi**

Vətən qarşısındakı övladlıq borcunu layiqincə yerinə yetirməyə tələsən Emil İsgəndərov 2008-ci ildə böyük həvəslə bir zamanlar atasının xidmət etdiyi və vuruşduğu ordu sıralarına yollanıb. Qismət elə gətirib ki, Emil də atası kimi artilleriya bölməsində xidmət etməli olub. Elə ilk günlərdən, ilk məşğələlərdən o, hərbi bilikləri həvəslə mənimsəməyə başlayıb. Dərs və məşğələlərdə keçirilən mövzuları dərindən mənimsədiyinə görə atış çalışmalarında və təlimlərdə uğurlu nəticələr göstərib. Buna görə də komandanlıq tərəfindən dəfələrlə fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıb. Vətən qarşısındakı müqəddəs borcunun öhdəsindən vicdan və şərəflə gəlib.   Nümunəvi xidmətinə görə "kiçik çavuş" rütbəsi alıb. Emil İsgəndərov 2010-cu ildə ordu sıralarından tərxis olunub. Bir müddət Sumqayıt Texnologiya Parkında işləyib.

2012-ci ilin avqust ayı Emilin tərcümeyi-halına, taleyinə böyük hərflərlə yazılıb. Həmin tarixdə Emil hərbçi kimi atasının yolunu davam etdirəcəyinə qərar verıb. Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının "N" hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi xidmətə başlayıb. Orada xüsusi vasitələrin tətbiqi bölməsində müvafiq vəzifədə xidmət edib. Emil elə xidmətinin  ilk günlərindən nümunəvi davranışı ilə komandanlığın rəğbətini qazanıb. Çalışqanlığını, ordu həyatına marağını və bacarığını nəzərə alan komandanlıq 2014-cü il sentyabrın 15-də onu Daxili Qoşunların Ali Hərbi Məktəbində gizir hazırlığı kursunda oxumağa göndərib. Emil burada da təlim-məşqlərdə fəal iştirak edərək daim biliklərini və hərbi vərdişlərini təkmilləşdirib. Təhsilini uğurla başa vuraraq 2015-ci ilin martında hərbi hissəyə "gizir" rütbəsiylə qayıdıb. Həm xidməti fəaliyyətindəki uğurları, həm daim coşub-daşan vətənpərvərliyi, həm də şəxsi keyfiyyətləri nəzərə alınaraq, bir müddətdən sonra onu xüsusi təyinatlı dəstədə xidmətə seçiblər. Gizir Emil İsgəndərov komandanlığın bu addımını böyük həvəslə qarşılayıb. Ona göstərilən bu etimadı doğrultmaq üçün Emil bundan sonra daha da məsuliyyətlə xidmətini davam etdirib.

2016-cı ilin sentyabrında Emil sevib-seçdiyi Aygün xanımla ailə həyatı qurub. Ömrünün ən xoşbəxt günlərini yaşamağa başlayıb. Onların iki oğul övladı dünyaya göz açıb. Uşaqlarının adını İbrahim və Nicat qoyublar.

**Döyüş yolu Cəbrayıldan başladı**

2020-ci ilin 27 sentyabrında erməni təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlayanda gizir Emil İsgəndərovun xidmət etdiyi hərbi hissənin şəxsi heyəti Füzuli-Cəbrayıl rayonları istiqamətinə göndərilir. Onun şərəf dolu döyüş yolu da elə Cəbrayıl rayonundan başlayır. Əks-hücum əməliyyatlarına qələbə əzmi ilə atılan zabit və əsgərlərimiz düşmənin atəş nöqtələrini susdurub geri oturdurlar. Ordumuzun gücü, qüdrəti qarşısında dayana bilməyən qəsbkarlar geri çəkilirdilər. Emilin sıralarında vuruşduğu şəxsi heyət işğalçılara sarsıdıcı zərbələr endirə-endirə illərdən bəri möhkəmləndikləri mövqeləri darmadağın edirdilər.

Sentyabrın son günlərində artıq Emilgil Xocavənd rayonunun Hadrut qəsəbəsi istiqamətində hərəkət etməyə başladılar. Düşmən avtomobilləri artilleriya atəşinə tutduğuna görə döyüşçülər qruplar şəklində piyada gedirdilər. Döyüşçülərimiz bir neçə gün ərzində Xocavənd rayonunun dağlıq və meşəlik ərazilərindən, Xocalı rayonunun kəndlərindən keçməklə Şuşaya yaxınlaşırdılar. Onu da qeyd edək ki, gizir Emil İsgəndərov iştirakçısı olduğu həm Cəbrayıl rayonu ərazisində, həm Hadrut və Qubadlı, həm də Şuşa uğrunda gedən əməliyyatlarda qəhrəmancasına döyüşüb. Üzərinə düşən döyüş tapşırığını bacarıqla yerinə yetirib. Cəsur gizirin son döyüşü Şuşa uğrunda olub. Əməliyyatın qızğın çağında düşmənin atdığı güllələrdən ikisi Emilin qoluna dəyib. Amma cəsur gizir yaralanmasına baxmayaraq, hərbçi yoldaşları ilə çiyin-çiyinə verərək döyüşü sona qədər davam etdirib. Yaralı vəziyyətdə vuruşa-vuruşa xeyli irəliləyib. Şuşa şəhərinin yaxınlığına çatanda düşmən onları minaatan qurğusundan atəşə tutub. Yaxınlığına düşən mərmidən qopan qəlpələr onun sol ayağını yaralayıb. Döyüş yoldaşları köməyinə yetişərək yaralı vəziyyətdə onu həkimə çatdırmağa çalışsalar da, çoxlu qan itirdiyinə görə şəhid olub.

Şəhidin anası Tənzilə İsgəndərova ilə söhbət etdik. Tənzilə xanım dedi: "Atalar yaxşı deyib ki, oğullar Vətəni qorumaq üçün doğulur. Vətən qorunanda Vətən olur. Övladlarım gözlərini dünyaya açanda atalarını hərbi formada görmüşdülər. Buna görə də onlarda orduya, hərbi sahəyə böyük maraq oyanmışdı. Emili də hərbi xidmətə aparan bu olmuşdu. O, evimizin ilki idi. Çox ağıllı, qayğıkeş olan Emil təkcə bizim deyil, qonşuların da sözünə baxar, onların buyruqlarını yerinə yetirərdi. Amma onu da deyim ki, bir az nadincliyi də var idi. Hərdən məktəbdə futbol oynayanda vurduğu toplar pəncərələrin şüşələrinə dəyərdi. Nə qədər nadinc olsa da, oxuduğu məktəbin müəllimləri onun xətrini çox istəyirdilər. Emilin adı direktor müavini Nadya xanımın dilindən düşməzdi. Tez-tez ona müxtəlif tapşırıqlar verərdi. Son zəng mərasimində Nadya xanımın Emili "cəzalandırmağı" heç yadımdan çıxmır. Mərasimin ssenarisinə uyğun olaraq oğlum birinci sinif şagirdini çiyinlərinə alıb tədbir keçirilən meydanda gəzdirməli, uşaq da əlindəki zəngi çalmalı idi. Nadya müəllim də birinci sinif şagirdini çox kök bir qız uşağı seçmişdi ki, Emil onu çiyinlərində gəzdirəndə əziyyət çəksin. Amma oğlum heç bir əziyyət çəkmədən həmin uşağı çiyinlərinə götürüb meydanboyu gəzdirmişdi. Necə deyərlər, bu sınaqdan alnıaçıq çıxmışdı..."

**Övladlarının səmasında sülh göyərçinləri qanad çalan bir ölkədə yaşamasını istəyirdi**

Tənzilə ana kövrəldiyindən səsi yarıda qırılır. Az sonra yenə də sözünə davam edərək deyir ki, Emil döyüşə gedən gündən nigaran qalıblar: "Tez-tez zəng vurub bizimlə əlaqə saxlayır, qısa da olsa iştirakçısı olduğu döyüşlərdən söz açırdı. Emil ailəcanlı, evcanlı oğul idi. Hər dəfə zəng edəndə övladlarını soruşar, onlardan da xəbər tutardı. Balamın doğma səsini eşidəndə sanki dünyanı mənə verirdilər. Bilirdim ki, sağ-salamatdır, Qarabağ uğrunda vuruşur. Hər gün cəbhədən də Zəfər qoxulu xəbərlər alırdıq. Torpaqlarımız addım-addım erməni işğalçılarından azad olunurdu. Ayların, illərin həsrətinə son qoyulurdu. Artıq Emilin döyüşlərə getdiyi vaxtdan bir aydan çox keçmişdi. Noyabrın ilk günlərindən onun zənginin arası kəsildi. Son dəfə bizimlə danışanda demişdi ki, artıq torpaqlarımızı azad edə-edə Şuşaya yaxınlaşmışıq. Bir-iki günə düşməni bu müqəddəs məkandan da qovacağıq. Emilin zənginin arasının kəsilməsindən çox narahat qalsaq da, ağlımıza bədbin fikirlər gəlmədi. Düşündük ki, ya telefonunun batareyasının enerjisi qurtarıb, ya da ərazidə şəbəkə yoxdur. Amma bir neçə gündən sonra qapımızı onun ölüm xəbəri döydü. Özü ilə evimizə kədər gətirmiş bu acı xəbər hamımızı sarsıtdı. Övlad itirmək ağır, dözülməz dərddir. Təskinliyimizi yalnız onda tapırıq ki, Emil illərdən bəri erməni işğalında qalmış torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olub.

Oğlum çox vətənpərvər idi. Qarabağın düşmən tapdağında qalması onu çox narahat edirdi. Həmişə deyirdi ki, biz nəyin bahasına olursa-olsun, torpaqlarımızı erməni işğalçılarından azad etməliyik. Qoy övladlarımız müharibəsiz bir dünyada, səmasında sülh göyərçinləri qanad çalan ölkədə yaşasınlar. Emil canından da çox sevdiyi Vətən uğrunda şəhid oldu. Oğlum üçrəngli bayrağımızı çox sevirdi, ona çox böyük rəğbət bəsləyirdi. Buna görə də həmişə evimizdən bayraq asardı. Cənazəsini də elə sevdiyi bayrağa bürüyüb gətirmişdilər. Noyabrın 12-də Emili Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında torpağa tapşırdıq. Biz Emili heç vaxt unutmayacağıq, onu həmişə ehtiramla xatırlayacağıq.

Tənzilə xanım daha sonra dedi ki, 2024-cü il sentyabrın 27-də bir qrup şəhid ailəsi ilə Xocalıya, Xankəndiyə, Şuşaya və erməni işğalından azad olunmuş başqa bölgələrə getmişdik. Bu səfəri "Yaşat" Fondu təşkil etmişdi. Ağdamdan keçəndə gördüklərimə inanmadım. Aman Allah, ermənilər bu gözəl şəhəri nə günə, nə vəziyyətə salmışdılar. Salamat bir ev, uçurulmamış bir bina qalmamışdı. Hər addımda, hər yerdə erməni vəhşiliyinin qanlı izləri görünürdü. Həyatımda ilk dəfəydi ki, Qarabağa gedirdim. Xocalıdan keçəndə özümdən asılı olmadan kövrəldim. Xocalının dağları, düzləri necə də gözəl idi. Bu gözəllikləri seyr edə-edə Xankəndinə gəldik. Hər şey mənə yuxu kimi gəlirdi. Doğrudan da, çox inanılmaz idi. Deməli, şəhidlərin qanı havayı yerə axmamışdı. Uğurla başa çatan 44 günlük Vətən müharibəsi və ondan sonrakı antiterror əməliyyatları nəticəsində Qarabağ torpaqları və ətraf rayonlar işğaldan azad olunmuşdu. Biz buna çox sevinirdik. Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə və

şəhidlərimizə minnətdarlıq hissi ilə Qarabağ torpaqlarını ziyarət edirdik. Xankəndidən sonra Emilin uğrunda şəhid olduğu gözəl Şuşa şəhərinə getdik. Oğlumun şəhid olduğu yerə baxmağa ürəyim gəlmədi. Amma qürur hissi keçirdim ki, mənim övladım da Şuşa uğrunda vuruşub, bu gözəl diyarın düşmənlərdən azad olunması naminə qəhrəmanlıq göstərib. Emilin döyüş yolu yarımçıq qalsa da, onun zabit və əsgər yoldaşları əməliyyatları uğurla davam etdirərək Şuşanı erməni işğalçılarından azad ediblər. Zəfərləri, qələbələri ilə Azərbaycan xalqını sevindiriblər".

**Qəhrəmanlığı mükafatlandırıldı**

Yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmuş Emil İsgəndərovdan iki oğul övladı - İbrahim və Nicat yadigar qalıb. Həyat yoldaşı Ayğün xanım kövrəldiyindən Emil haqqında çox danışa bilmədi. Yalnız onu dedi ki, övladlarını onun adına layiq böyüdəcək...

Əli də qardaşı Emil haqqında uzun danışmadı. Dedi ki, Emili həmişə cəsur bir hərbçi, əziz qardaş kimi xatırlayacaq.

İkinci Qarabağ müharibəsi zamanı döyüşlərdə göstərdiyi igidliyə və qəhrəmanlığa görə gizir İsgəndərov Emil Vaqif oğlu ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə", "Hərbi xidmətlərdə fərqlənməyə görə" 3-cü dərəcəli medallarla təltif edilib.

Doğmaları, əzizləri ilə təskinlik dolu sözlərlə sağollaşıb evlərindən çıxırıq. Sanki Emil də guşəyə vurulmuş şəklindən boylanan cəsurluq, igidlik yağan baxışları ilə bizimlə sağollaşır, "tez-tez gəlin, yolunuzu gözləyəcəyəm" deyir. Elə bil bu anlarda Emilin qürur və iftixar dolu səsini də eşidirik. Şəhidin səsi bizə çox əziz gəlir.